# "Ey millət təəssübü çəkən qardaşlar, vaxt keçməmiş, məktəbxanalar bina edin..."

## Həsən bəy Zərdabi "Əkinçi"nin səhifələrində yazırdı

**Zərdabişünas alim Esmira Cavadova öz həyatını jurnalistikaya, araşdırmaya, elmi tədqiqatlara həsr edib. O, 1920-ci ilə qədər olan Azərbaycan jurnalistikasının zəngin kartotekasını hazırlayıb. 1980-ci ildən etibarən araşdırma ilə məşğul olmağa başlayıb. Onun yaradıcılığının əsas hissəsini Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin həyat və yaradıcılığı ilə bağlı araşdırmalar təşkil edir.**

Bununla yanaşı, Esmira xanım Həsən bəy Zərdabinin 1897-1907-ci illərdə Bakı Dumasındakı fəaliyyəti ilə əlaqədar də fundamental araşdırma aparıb. Həmin əsərdə Zərdabinin Dumada qaldırılan məsələlərə münasibəti öz əksini tapıb. Həmin dövrdə Zərdabi xalqımızın taleyüklü məsələlərini, o cümlədən elm və təhsillə bağlı qayğılarını, müxtəlif problemlərdən dolayı narahatlıqlarını dilə gətirib.

Esmira Cavadova Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində dərc olunmuş məqalələrini təqdim edir:

"Altı ay yoxdur ki, bizim "Əkinçi" qəzeti çap olunur, amma ingilisin paytaxtı London qəzetində onun çap olunduğu məlumdur. Oradan bir kitabın bir fəslin türk dilində olan tərcüməsini bizə göndəriblər ki, onun qəzetini düzəldək. Əlhəd, bu çox ziyadə gözüaçıqlığın istər. London şəhərində bir neçə yüz qəzet çap olunur. Onunla belə kişilər dünyanın içində bizim qəzet kimi bir kiçik qəzet olmağını eşidib istəyirlər ondan da xəbərdar olsunlar, amma bizim adamın çoxu nə ki, buçağadək bizim qəzeti oxumayıblar, bəlkə bəzi kəslər onun bina olunmağının xəbərini də eşitməyiblər. Hətta elə adam var ki, qəzet pulu verib onu almaq istəmir.

Bizim xalq dünya işlərini belə soyuq tutmağı bilirkən biz "Əkinçi" qəzetini çap etdirməyi başlamışıq və bizim təkcə yuxudan oyananlarımıza ümid olmuşuq ki, xalq oxuyub ondan mənfəətbərdar olmağa və dünya işlərindən xəbərdar olmağa səy edəcəklər.

Biz müsəlmanlar dünya işini soyuq tutmağa bizim məzhəbimiz səbəb deyil ki, onu xaricilər bizlərə böhtan deyirlər. Cənab şeyxülislamın bu nömrədə çap olunan məktubunu oxuyana məlum olur ki, bizim peyğəmbərimiz öz ümmətini irəli salmaqdan ötrü onlara hökm edibdi ki, hər bir elini təhsil etsinlər".

*"Əkinçi" 1876, 1 yanvar, 1875-ci ilin axırıncı nömrəsi - yəni 12-ci nömrə; "Daxiliyyə".*

"Peterburqda bir padşahlıq kitabxanası var ki, onun hər ildə 800000 manat xərci olur. Ol kitabxanada 900000 basma, 30000 yazma kitab və 75000 kitab surəti var. Qiymətli kitabları şüşə altında saxlayırlar ki, onlara dəyməsinlər. O cümlədən bir qızıl cildli Quran var ki, qiyməti 33000 manatdır".

*Əsgər Gorani.*
*"Əkinçi" 1876, N1, 16 yanvar, "Təzə xəbərlər".*

"Bizim Bakubə şəhərində çiçək naxoşluğu olduğuna (görə - red.) indi ancaq çiçəkdən danışacağıq.

Çiçək iki qism naxoşluğa deyirlər ki, birisi əsl çiçəkdir və birisi səpgidir. Əsl çiçəkdən çox adam tələf olur, amma səpgidən yüzdə biri vəfat edir. Keçən zaman ki, çiçək döymək məlum deyilmiş, çiçək qarayara kimi hər vilayətə düşsə onu tamam edirmiş. Amma indi onun səbəbi və əlacı məlum olduğuna ol qədər şiddət etmir.

Çiçəyi döyülən kəs çiçəkdən xəstə olmur, əgər olsa da az olur. Bəzi vaxtda çiçəyi döyülən kəs demə sonra çiçəkdən naxoşlayır. Ona binaən təbiblər məsləhət edirlər ki, hər kəs on ildə bir dəfə çiçəyini döydürsün və belə deyirlər ki, ol vaxtda ona heç çiçək dəyməz.

Əgər çiçək düşən yerdə təbib olsa, onu xəstənin üstə gətirdib onun məsləhətlərinə görə əməl etmək gərək, amma təbib olmasa lazımdır xəstəni soyuqdan və istidən mühafizə edib ona isti və təmiz xörəyi az-az verib, paltarını və bədənini pak saxlamaq və əgər işlətmə lazım olsa gərçək yağı vermək. Belə saxlanan xəstənin çoxu təbibsiz də şəfa tapır. Xəstəni ayrı otaqda saxlamalı ki, orada qeyri kəs sakin olmaya. Xəstəni elə saxlamaq gərək ki, onun yaralarının üstə milçək düşməsin, yoxsa onun ayaqlarına və qanadlarına ol yarada olan ələfiyyatın toxumları yapışar və sonra ol milçək sağ adamın üstünə oturanda ona da çiçək salar".

*"Əkinçi" 1876, N2, 30 yanvar, "Daxiliyyə".*

"Əkin yerini şuxm etməkdən ötrü əkinçinin ən başlıca aləti kotandır. Kotan yaxşı olduqcan yeri yaxşı nazik edər, onu işlətməyin zəhməti az və yerin bəhrəsi çox olur. Yaxşı kotan gərək şuxmu bir qalınlıqda kəsib qalxızıb, çökürüb əzsin.

Kotan üç qism olur: diyircəksiz, dayaqlı və diyircəkli. Diyircəksiz kotan yüngül olduğuna ona daş ya kəsək rast gələndə onu düzəltmək asandır. Ona binaən onunla daşlı yeri şuxm etməkdən ötrü işlədirlər ki, yüngül olduğuna az mal ilə də işlətmək olur. Ona bir ya iki cüt öküz qoşurlar. Onun cırıqları düz olmadığına şüxumu təmiz olmaz.

* * *

Dayaqlı kotanın altında bir ucu yastıq, dayaq ya bir diyircək olur. Ona binaən onu düz saxlamaq çətin deyil, onun cırıqları düz və şuxmu təmiz olur və əgər lazım olsa, onun dayağını çıxarıb diyircəksiz kotan yerinə işlətmək olur. Ona 2 ya 3 cüt öküz bəsdir.

* * *

Diyircəkli kotanın iki diyircəyi olur ki, onların üstə qırın başı dayanıb, onların üstünü basıb kotanı ağır edir. Ona 3 ya 4 cüt öküz qoşurlar, amma o ağır olduğuna onu düz saxlamaq asandır, hətta əkinçi əldən qoyanda da çökürülməz. Ona binaən onun cırıqları düz və şuxmu təmiz olur...

Məzkur kotanları hər vilayətdə bir qeyri cürə qayırırlar. Xülasə, dünyada kotan çoxdur, amma bizimkindən yamanı heç olmaz. Onun hər bir hissəsi yaman olduğuna 8 cüt öküz ilə işlədirik və onilə belə yeri narın edib çökürə (çevirə - E.S.) bilmirik. Ona binaən bizim tavanası olan əkinçilər yaxşı elərdilər ki, Moskva karxanalarından əla kotanlardan gətirdib işlədəydilər. Çünki indi su buğu ilə işləyən kotan-maşın ixtira ediblər ki, bir tağar yeri bir saatda şuxm edir".

*"Əkinçi" 1876, N2, 30 yanvar, "Əkin və riaət xəbərləri".*

Məqalədən aydın olur ki, Həsən bəy Zərdabi Azərbaycan kəndinə yeni təkmilləşdirilmiş fabrik kotanlarının gətirilməsini tövsiyə edir, əkinçiliyi yeni əsaslar üzərində inkişaf etdirməyi məsləhət bilirdi. Lakin Azərbaycan kəndlisinin iqtisadi yoxsulluğu Həsən bəy Zərdabinin bu arzularının onun yaşadığı dövranda yerinə yetirilməsinə hələ imkan vermirdi. Odur ki, inqilaba qədər bəzi mülkədar təsərrüfatları istisna olmaqla Azərbaycanın hər yerində əhalinin əsas şum aləti ənənəvi xış və ağac kotanlar olaraq qalmaqda idi.

*Bu nömrədə:*

"Tiflisdə dövlət tərəfindən bir məclis bina olunub ki, Qafqazda olan əkin sulamaq adətlərini cəm bir qərardad qoysun ki, su xalq arasında doğruluq ilə paylansın".

*"Əkinçi" 1876, N2, 30 yanvar, "Təzə xəbərlər".*

"Keçən yanvarın 19-da Şuşa şəhərində, yəni Qarabağın Şuşa qalasında teleqrafxana açılıb".

*"Əkinçi" 1876, N3, 15 fevral, "Təzə xəbərlər".*



"Rusiyada torpaq kənd camaatına təəlüq olduğuna bəzi kəndlərdə camaat əkinbiçini bir yerdə edib, sonra məhsulatı bölürlər. Camaatın belə birləşməsinin bir xeyri də odur ki, elm yolu ilə təmir olunmuş əsbabları gətirib işlətmək asan olur.

* * *

Berlin şəhərində qulluqçular üçün məktəbxana açılıb ki, onlar paltar tikməyi, yumağı, biçməyi və xörək bişirməyi öyrənirlər".

*"Əkinçi" 1876, N4, 29 fevral, "Təzə xəbərlər".*

"3 il bundan əqdəm İngilisdə bir icma bina olub ki, hər bir şəhərdə qızlardan ötrü məktəbxana açsın. İndiyəcən 9 məktəbxana bina edib. Ol camaatın hər ildə öz calislərindən 90 min manat cəm olur".

*"Əkinçi" 1876, N7, 14 aprel, "Təzə xəbərlər".*

"Əhəng adamın gözünə düşəndə onu su ilə yumaq yaxşı deyil, ona binaən ki, sudan əhəng bərkiyib ziyadə azar edər. Yaxşıdır ki, onu qənd suyu ilə yuyasan".

*"Əkinçi" 1876, N8, 28 aprel, "Elm xəbərləri".*

"Rusiya zakonuna binaən küçələrdə dilənçilik etmək qadağandır. İndiyəcən Peterburqda 24 icma bina olub ki, dilənçilərdən ötrü əlahiddə mənzillər bina edib onlara kömək etsinlər. Ol icmaların calislərində hər ildə 118 min manat cəm olur.

* * *

450 il bundan sabiq Osmanlı türkləri Avropaya daxil olub Rim dövlətinin Qəstəntiniyyə şəhərini zəbt edib ona İstanbul, yəni islam şəhəri ad qoyub, ətrafda vaqe olan xaçpərəst vilayətlərini həm zəbt ediblər. Bir neçə il bundan sabiq zikr olan vilayətlərin biri ki, olsunlar Serb və Qaradağ, yəni Əşqüdrə, Əflan və Bağdan əyalətləri Osmanlı dövləti ilə cəng edib onun rizdestindən çıxıb, indi ancaq dövləti - Osmaniyyə müəyyən olan xərc verirlər, amma ümrati - daxiliyyələri özləri iləd ir.

Bosnə və Qerdseqovinə əhli Osmanlı dövləti ilə cəng edirlər, onların həm muradi oldur ki, zikr olan əyalətlər kimi olsunlar... Osmanlıya heç xərc verməsinlər".

*"Əkinçi" 1876, N8, 28 aprel, "Təzə xəbərlər".*

Həsən bəy Zərdabi dövlət tərəfindən məktəbxanalar barəsində qoyulmuş yeni qaydalardan danışaraq yazır ki, "ol qaydaya görə hər bir məktəbxana dövlət tərəfindən açılmalıdır, istər dövlət tərəfindən ya məxsusi olsun, bu məktəblərdə qeyri elmlərdən savayı rus dili oxunmalı və hər kəs məktəbxanaya baxmaqdan ötrü dövlət tərəfindən ayrıca çinovniklər təyin olunmalıdır. Bu qaydadan xəbərdar olan ermənilərin ruhaniləri cənab sərdara ərizə verib bəyan ediblər ki, onların kilsələrinin yanında olan məktəbxanalarda ancaq ruhanilər öyrədilir və erməni ruhanisi üçün rus dili bilmək lazım deyil. Ol səbəbə cənab sərdar zikr olan qaydanı belə dəyişdiriblər: Erməni kilsələrinin və müsəlmanların məscidlərinin yanında açılan məktəbxanalardan savayı hər bir məktəbxana olsa, orada gərək rus dili oxunsun və bu məktəbxanalara baxmaqdan ötrü əlahiddə çinovniklər təyin olunub; bir də hökm olunub ki, əvvəl zaman Gəncə və Bakubə quberniyalarının hər birində kənd əhli üçün dövlət tərəfindən 3 məktəbxana açılsın. Onların üçü bu il Gəncə quberniyasında açılacaq, amma Bakubə quberniyasında hələ açılmayacaq. Çünki ol məktəbxanalarda dərs deməyə müəllimlər yoxdur ki, rus dilindən savayı xalqın dilini həm bilsinlər, ona binaən Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri sonra müəllim eləsinlər. Ol məktəbxanalarda 20 nəfər erməni və gürcü padşahlıq xərcilə oxuyacaq. İndi "Kavkaz" adlı qəzet yazır ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü sonra əlahiddə məktəbxana açılacaq, amma indi müsəlmanlardan hər kəs xahiş etsə, zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqların öz xərcilə qoya bilər. Oraya oxumağa girən kəs gərək uyezdni şkolada oxumuş ola və özü 16-19 yaşında ola. Orada 3 il dərs deyiləcək".

*"Əkinçi" 1876, N10, 27 may, "Daxiliyyə".*

Həsən bəy Zərdabi Bakı qubernatoru olmuş cənab Staroselskinin "Əkinçi" qəzetinin SA olunmasındakı böyük rolundan, yaxşılıqlarından özünün dediyi kimi bir neçə kəlmə danışmağı özünə borc, vacib bilmişdi. O yazırdı: "3 il idi ki, bizə qəzeti SA etməyə izn vermirdilər. Buna səbəb o idi ki, Bakubədə dövlət tərəfindən qəzetlərə mülahizə edən adam yox idi. Amma ol cənab bizə zamin olub ol izni bizim üçün aldı. Çapxanamız da yox idi. Hürufati İstanbuldan gətirəndən sonra cənab Staroselski həmin hürufatı qubernski pravleniyanın çapxanası üçün aldı ki, indiyəcən orada bizim qəzet çap olunur. Daha sonra o uyezdin naçalniklərinə tapşırıq verdi ki, kəndlərə poçt işləmədiyinə görə onlara qəzeti çaparlar vasitəsilə göndərsinlər. Cənab Staroselski həmişə "Əkinçi" qəzetinə maddi və mənəvi köməklik göstərirdi. Millət işlərinə elədiyi yaxşılıqlarına görə onun barədə bir neçə kəlmə yazıb bizim qəzetin dostlarına bəyan edirik, qoy onun ismi tarixlərə düşüb baqqi olsun".

*"Əkinçi" 1876, N12, 25 iyun, "Daxiliyyə".*

"Ey millət təəssübü çəkən qardaşlar, pəs vaxt keçməmiş elm kitabları gətirib, məktəbxanalar bina edib, öz dilimizdə təhsili-üluma məşğul olun ki, müsəlmanlıqda daim olasınız. Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə yüz tutmaq çətindir, siz danışdığınızı onlar başa düşməyib, əfalinizi şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Doğrudur, qeyri millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarımızı atıb, onları kor və sərgərdan qoyasınız. Sizinə qədər incitsələr, həcv etsələr, mollalar lənət oxusalar, siz millət üçün zəhmət çəkirsiniz və bişəkk gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq".

*(Davamı növbəti sayımızda)*